UOT 94 (479.24)
https://doi.org/10.59849/2710-0820.2024.1.120

**Şahlar Şərifov**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun*
*aparıcı elmi işçisi, dosent,*
*shahlarsharifov@gmail.com,*
*Azərbaycan*

# ERKƏN XİLAFƏT DÖVRÜNDƏ YAŞAMIŞ AZƏRBAYCANLI ƏDİBLƏR (VII-VIII ƏSRLƏR)

***Açar sözlər:*** *əl-Azərbaycani, Musa Şəhəvat, İsmayıl ibn Yəsar Nisai, Əbül-Abbas Əma, Yəhya bin Malik əl-Marağayi, Əbul-Həsən Əli əl-Varsani, Hüseyn ibn İbrahim Dərbəndi.*

VII əsrin əvvəllərində İslam dininin meydana çıxmasından sonra qəbilələr şəklində yaşayıb bir-biri ilə ədavətdə olan ərəblər birləşərək qüdrətli bir dövlət yaratdılar. Qonşu dövlətlərin iqtisadi, siyasi və hərbi zəifliyindən istifadə edən ərəblər, qısa müddət ərzində Asiya və Afrikada Bizans imperiyasının tərkibinə daxil olan bir çox əraziləri işğal etdilər. Sasani dövlətinin varlığına son qoyduqdan sonra Cənubi Qafqazı və Orta Asiyanı da tutaraq böyük bir imperiya yaratdılar.

Ərəb Xilafətinə tabe edilən ərazilərdə yeni din olan İslamla birlikdə ərəb dili də dinin rəsmi dili kimi təbliğ olunurdu. Mədrəsələrdə, dövlət idarələrində, dini ayinlərin icrasında ərəb dilinin rəsmi dil kimi işlədilməsi İslam dininin yayıldığı ölkələrin, o cümlədən Azərbaycanın siyasi, ictimai və mədəni həyatında birinci dərəcəli mövqe tuturdu. Ərəb dilinin Azərbaycanda hakim mövqe tutmasından əvvəl ərəblər tərəfindən əsir alınmış bir sıra azərbaycanlı şairlər öz qələmlərini ərəb dilində sınayaraq, ərəbləri heyrətə salan kamil sənət nümunələri yaratmışlar.

Erkən xilafət dövründə yaşamış əslən Azərbaycandan olan şairlərdən söhbət açarkən Musa Şəhəvat, İsmayıl ibn Yəsar Nisai, Əbül-Abbas Əma, Yəhya bin Malik əl-Marağayi, Əbul-Həsən Əli əl-Varsani və Hüseyn ibn İbrahim Dərbəndinin adlarını qeyd etmək lazımdır.

Orta əsrlərdə ərəb dilində yazıb-yaratmış azərbaycanlıların həyat və yaradıcılığını öyrənmək üçün ərəbdilli mənbələrə müraciət etmək lazımdır. Çünki orta əsr ərəbdilli mənbələrdə Azərbaycan haqqında geniş və zəngin məlumatlar verilməkdədir. Orta əsr ədəbiyyatımızın əsas məlumat mənbəyi ərəb dilində yazılmış məcmuələr, təzkirələr, tarixi, coğrafi, etnoqrafiq əsərlərdir. Erkən xilafət dövründə yazılan bu əsərlər, klassik ərəb ədəbiyyatının incilərini qoruyub saxlamaqla yanaşı, o dövrdə yazıb-yaratmış azərbaycanlı ədiblərin də yazmış olduğu əsərlərin bir hissəsinin məhv olmasının qarşısını almışdır.

Erkən orta əsrin ərəbdilli müəlliflərindən olan Əbu Məhəmməd Abdullah ibn Müslim ibn Quteybənin ədəbiyyata, dilçiliyə, tarixə dair yazdığı əsərlər qiymətli bir mənbə kimi istər Şərqdə, istərsə də Qərbdə həmişə öz dəyərini qorumuşdur. İbn Quteybə "Uyun əl-əxbar" ("Xəbərlərin mənbəyi") adlı əsərində əslən Azərbaycandan olan Musa Şəhəvata müraciət edərək onun şeirlərindən də iki beyt qeyd edir [14, III, s.17]. Məşhur tarixçi Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbəri "Tarix ər-rusul vəl-muluk" ("Peyğəmbərlərin və hökmdarların tarixi") adlı əsərində Əməvi xəlifəsi Süleyman ibn Əbdülməlikdən (715-717) danışarkən Musa Şəhəvatın da bu iki beytini qeyd etmişdir [17, s.13; 27, VI, s.547].

Orta əsr ərəbdilli müəlliflərdən olan Əbul-Fərəc əl-İsfəhani (897-967) "əl-Əğani" ("Nəğmələr") əsərində yüzlərlə şair haqqında məlumat verir. Qeyd olunan əsərdə üç Azərbaycan şairinin yaradıcılığı da əks olunmuşdur. Əbul-Fərəcin İsmayıl ibn Yəsar (7, IV, s.285-299), Musa Şəhəvat [6, III, s.243-254] və Əbul-Abbas əl-Əma [8, XVI, 204-210] haqqında verdiyi məlumatlar dolğunluğu ilə diqqəti cəlb edir. Əbul-Fərəcin əsərində, İsmayıl ibn Yəsar, Musa Şəhavat, Əbul-Abbas əl-Əma haqqında digər

mənbələrdən fərqli olaraq geniş məlumat verilir. Ümumiyyətlə "əl-Əğani" VII-VIII əsrlər ərəbdilli Azərbaycan poeziyasını təqdim etmək baxımından böyük əhəmiyyət kəsb edir.

Əbul-Fərəclə eyni dövrdə yaşayan Əbu Ubeydullah Məhəmməd ibn İmran ibn Musa əl-Mərzubani (890-988) də "Mucəm əş-şüəra" ("Şairlərin cəmi") əsərində İsmayıl ibn Yəsar və Musa Şəhavat haqqında məlumat vermişdir. İsmayıl ibn Yəsar haqqında məlumat verən müəllif şairin atası və oğulları haqqında da danışmış və hətta İsmayılın oğluna isnad verilən şeirindən üç beyti misal gətirmişdir [17, s.14; 18, s.337-338].

Əbu Mənsur əs-Səalibinin (961-1037) "Yətimət əd-dəhr fi şüəra əhl əl-əsr" ("Dövrün şairləri haqqında dövranın yeganəsi") adlı kitabı, adından da göründüyü kimi, alimin öz dövründə yaşamış şəxsiyyətləri əhatə edir. Əs-Səalibi adı çəkilən əsərində yalnız iki Azərbaycan şairi haqqında məlumat vermişdir [21, III, s.216-221, 228]. Çox təəssüf ki, Əs-Səalibi digər şəxsiyyətlərdən danışarkən onların həyatına geniş yer verdiyi halda, Azərbaycan şairlərinin həyatından danışmamış, yalnız şeirlərindən bəzi nümunələr verməklə kifayətlənmişdir.

Əbu Bəkr Əhməd ibn Əli əl-Xətib əl-Bağdadinin (1002-1071) on dörd cildlik "Tarixi Bağdad və mədinət əs-səlam" ("Bağdadın, yaxud sülh şəhərinin tarixi") əsəri XI əsrin birinci yarısına qədər yetişmiş Azərbaycan alimlərindən məlumat verən çox qiymətli məxəzlərdən biridir. Xətib Bağdadi bəhs etdiyi Azərbaycan alimlərinin bir hissəsinin müasiri olmuş, Bağdadda onlarla görüşmüşdür [11, s.243-245].

Azərbaycan mədəniyyətinin Xilafət dövründə keçdiyi inkişaf yolu Əbu Səid əs-Səmaninin (1114-1166) "Kitab əl-Ənsab" ("Nəsəblər kitabı") əsərində geniş şərh olunmuşdur. Adı çəkilən əsərdə yüzə qədər Azərbaycan alimi haqqında məlumat verilmişdir. Burada Urmiya [22, I, s.115], Təbriz [22, I s.446], Tiflis [22, I, s.471], Ərdəbil [22, I, s.107], Marağa [24, V, s.245], Bakı [22, I, s.267], Mərənd [24, V, s.261], Beyləqan [22, I, s.435], Nəşavə (Naxçıvan) [24, V, s.490], Bərdic [22, I, s.314], Bərdə [22, I, s.316], Bərzənd [22, I, s.319], Muğan [24, V, s.409], Nəriz [24, V, s.480], Şirvan [23, III, s.423] və s. Azərbaycan şəhərlərindən olan şəxsiyyətlər haqqında məlumat verilməkdədir.

İbn əl-Cövzinin "əl-Müntəzəm fi tarix əl-muluk vəl-uməm" ("Hökmdarların və millətlərin sistematik tarixi") əsərinin IX cildində Xətib Təbrizi haqqında verdiyi məlumatın böyük elmi əhəmiyyəti vardır [12, IX, s.161-163].

Əbul-Fidanın "Kitab əl-muxtəsər fi əxbar əl-bəşər" ("Bəşəriyyətin tarixi barəsində müxtəsər kitab") adlı əsərində hicri 587-ci ilin hadisələrindən danışılarkən azərbaycanlı şair Şihabəddin Suhrəvərdiyə də geniş yer ayrılmışdır [9, III, s.81-82].

İbn Xordadbehin (820-912) "Kitab əl-Məsalik vəl-məmalik" ("Yollar və ölkələrin kitabı") adlı əsərində Azərbaycan şəhərlərinin bölgüsü haqqında verilən məlumatdan aydın olur ki, o, bir çox ərəb səyyah və tarixçilərindən fərqli olaraq, Azərbaycanın yalnız cənubunu deyil, Arranı da vahid bir Azərbaycan kimi qəbul edir. Lakin o, Şirvan zonasını Azərbaycandan ayırmış, onu ayrıca inzibati bir rayon kimi təsvir etmişdir [16, s.119].

Əbul-Qasim ibn Havqəl ən-Nəsibi (X əsr) "Kitab surət əl-ard" ("Yer kürəsinin bölgüsü kitabı") adlı əsərində Azərbaycan şəhərlərinin adlarını çəkməklə kifayətlənməmiş, onların təbii şəraitinə, iqtisadiyyatına və elmi mühitini də geniş yer ayırmışdır. İbn Havqəlin bölgüsünə görə Ərdəbil, Marağa, Təbriz, Səlmas, Urmiya, Uşnə, Miyanəc, Xunəc, Dəxirqan, Xoy, Mərənd, Bərzənd, Varsan, Muğan, Beyləqan, Cəbirvan, Bərzəə, Dərbənd, Tiflis, Bərdic, Şamaxı, Şirvan, Laycan, Şabran, Qəbələ, Gəncə, Şəmkir və s. şəhərlər o vaxt Azərbaycanın və Arranın tərkibində olmuşdur [13, s.331-355].

VII-VIII əsrlərdə ərəbcə yazmış İsmayıl ibn Yəsar, Musa Şəhavat, Əbul-Abbas əl-Əma, Yəhya bin Malik əl-Marağayi, Əbul-Həsən Əli əl-Varsani və Hüseyn ibn İbrahim Dərbəndi kimi azərbaycanlı ədiblərin yaradıcılığı bir-birindən kəskin surətdə fərqləndiyi kimi, bütün o dövr Azərbaycan şairləri içərisində də xüsusi yer tuturlar.

**Musa Şəhavat**: Musa Şəhavat haqqında orta əsr ərəb mənbələrində məlumat verilməsinə baxmayaraq, Azərbaycan ədəbiyyatı tarixindən bəhs edən əsərlərdə onun yalnız adı qeyd olunmuşdur [2, I, s.44]. Onun atasının adı barəsində müxtəlif fikirlər mövcud olsa da, azərbaycanlı alim Malik Mahmudova görə Bəşşar olmuşdur [17, s.38]. Lakin Əbul Fərəc əl-İsfəha-

ninin "əl-Əğani" kitabının Beyrut nəşrini təhqiq edən İhsan Abbasa, İbrahim Səafinə və Bəkr Abbasa görə Musa Şəhavatın atası Yəsar, künyəsi isə Əba Məhəmməd olaraq qeyd olunmuşdur [6, III, s.243]. Azərbaycandan olsa da Mədinə şəhərində yaşamış, qənd və şirniyyat gətirdiyi üçün Şəhavat ləqəbi ilə tanınmışdır [6, III, s.243]. İbn Quteybə də "Kitab əş-şeir" əsərində Musa Şəhəvatın Azərbaycandan olduğunu bildirir [15, s.577].

Əbul Fərəc əl-İsfəhaniyə görə Musa ibn Yəsar Qureyş qəbiləsinin məvalisi olmuşdur. Lakin onun Qureyş qəbiləsinə mənsub Bəni Səhm, Bəni Teym ibn Murra və Bəni Ədiyy ibn Kəb qolunun hər hansı birinin məvalisi olması haqqında fərqli fikirlər mövcuddur [6, III, s.243].

Əbul Fərəc əl-İsfəhaninin qeydlərindən aydın olur ki, şair Musa Şəhavat Mədinənin qazisi Əbu Bəkr ibn Əbdürrəhmanı həcv etmişdir. Əbu Bəkr ibn Əbdürrəhman əməvi xəlifəsi Hişam ibn Əbdülməlikin zamanında Mədinə valisi Xalid ibn Əbdülməlik (732-736) tərəfindən qazilik vəzifəsinə təyin olunmuşdur [6, III, s.248]. Musa Şəhavatın həcvində belə deyilir:

فقدتك من قاض و من متأمر
أذى الناس لا تحشرهم ثم تحشر

وجدتك فهًا في القضاء مخلطا
فدع عنك يا سيد به ذات رجة

**Tərcüməsi:**
Hökm etməkdə bacarıqsız, çaşbaş gördüm səni,
Bir qazi, bir əmir kimi itirdim səni,
Xalqın əziyyəti ilə dolan, qurduğun hakimiyyətdən əl çək.
Hər dəfə məşhər ayağına çəkmə onları
[6, III, s.248].

Əbu Bəkrdən sonra şəhərin qazisi seçilən Səid ibn Süleyman ibn Zeyd ibn Sabit əl-Ənsarini isə Musa Şəhavat öz şeirlərində mədh etmişdir [6, III, s.248]. Səid ibn Süleymanı mədh edən Musa Şəhavat belə demişdir:

من القضاة وعدل غير مغموز
أمضى على الحكم من سيف ابن جرموز

من سره الحكم صرفا لا مزاج له
فليأت دار بنى زيد فإن بها

**Tərcüməsi:**
Kim tam və qarışıqsız bir hökm diləsə,
Qazi və yardımçılarından eyibsiz qəzavat istərsə,
Qoy Zeydin oğullarının evinə gəlsin.
Belə ki, orada ədalət İbn Cərmuzun qılıncından daha itidir [6, III, s.248].

Əməvi xəlifəsi Hişam ibn Əbdülməlik VIII əsrin ilk yarısında yəni 724-743-cü illərdə hakimiyyətdə olmuşdur. Buna əsasən demək olar ki, şair Musa Şəhavat həmin dövrdə sağ imiş və bədii yaradıcılığını davam etdirirmiş.

Əməvi xəlifəsi Süleyman ibn Əbdülməlikin dövründə şöhrəti daha da artan Musa Şəhavat, tez-tez xəlifənin sarayına gedib şeirlərini onun üçün oxuyarmış. Musa Şəhavatın ən məşhur şeiri onun əmir Səid ibn Xalid ibn Abdullah ibn Xalid ibn Əsid haqqında yazdığı mədhdir.

Musa Şəhavatın həcvindən qəzəblənən Səid ibn Xalid əl-Osmani xəlifə Süleyman ibn Əbdülməlikə şikayət edir. Xəlifə Süleymanın yanına gələn Musa Şəhavat ona şeirinin mənasını belə izah edir: "Onların adları və atalarının adları eyni olduğundan şeirimin düzgün başa düşülməyəcəyindən qorxaraq onları analarına görə fərqləndirdim. Əmisi oğlunu mədh etməyim isə Səid əl-Osmanini qəzəbləndirmişdir". Musa Şəhavatın cavabından heyrətlənən xəlifə Süleyman ona belə demişdir: "And olsun ki, sən onu həcv etmisən və mənə gizli olan nədir, sənin üçün bir dəlil tapa bilmirəm". Sonra şairi azad etmişdir [6, III, s.243-246].

Ədalətsiz qazi və valilərə qarşı amansız düşmən olan Musa Şəhavat, dövrünün bir sıra aktual problemlərini yazdığı şeirlərində də əks etdirmişdir. Məhz buna görə də fürsət əldə edən qazilər dərhal şairdən intiqam almağa çalışmışlar. Mədinənin hakimi Xalid ibn Əbdülməlik tərəfindən şəhərə qazi təyin edilən Əbu Bəkr ibn Əbdürrəhman, Musa Şəhavat haqqında əsassız hökm çıxardıqda şair onu kəskin satira atəşinə tutaraq, onun timsalında bütün hakimləri tənqid etmişdir [6, III, s.248].

Şairlərə və müğənnilərə qarşı mənfi münasibət bəsləyən Mədinə valisi Səd ibn İbrahim ibn Əbdürrəhman ibn Ouf da onlara təzyiq edirdi. Səd ibn İbrahimin qəddarlıq və rəhimsizliyini nəzərə alan Musa Şəhavat, onu da öz şeirlərində tənqid etmişdir [6, III, s.248-249]. Eyni zamanda ədalətin, haqqın böyük gücünə inanan

şair, zülmkar şairlərə lənət yağdırdığı kimi, insaflı qaziləri də mədh etməkdən çəkinməmişdir [6, III, s.248].

**İsmayıl ibn Yəsar**: Mənbələrdə İsmayıl ibn Yəsar haqqında məlumatlara diqqət yetirdikdə onun əsasən Qureyş tayfasının Teym qoluna aid olan Ali Zübeyr sülaləsinə mənsub şəxsiyyətlərə müraciətlə şeirlər yazdığı görünür.

İsmayıl ibn Yəsar ən-Nisai Qureyş qəbiləsinin bir qolu Bəni Teym ibn Mürrət tayfasının məvalisi olmuşdur. Ali Zübeyrin tərəfdarlarından biridir. Xilafət Əməvi xəlifəsi Əbdülməlik ibn Mərvana çatdıqda, Urvə ibn Zübeyrlə birlikdə xəlifənin sarayına gedən İsmayıl ibn Yəsar ona və ondan sonrakı xəlifələrə mədhlər yazmışdır. Uzun ömür yaşayan şair digər əməvi xəlifələrini və Abbasi xilafətininin əvvəllərini də görmüşdür [7, IV, s.285]. Bu qeydlərdən İsmayıl ibn Yəsarın artıq 685-ci ildə məşhur bir şair olduğu anlaşılır.

İsmayıl ibn Yəsarın mənşəyi və milli mənsubiyyəti barəsində mənbələrdə ziddiyyətli fikirlər mövcuddur. Əl-Mərzubani İsmayıl ibn Yəsarın kufəli bir əsirin oğlu olduğunu qeyd edir [17, s.50; 18, s.406]. Əl-Mərzubanidən (890-988) və əl-İsfəhanidən (897-966) təxminən 70 il əvvəl Kufədə anadan olmuş İbn Quteybə isə (828-889) İsmayıl ibn Yəsarın əslən Azərbaycandan olduğunu söyləyir [15, s.577]. Hətta İbn Quteybə eyni adlı əsərində Azərbaycan haqqında belə bir önəmli cümlə də qeyd etmişdir: “Mədinədə məvalilərdən elə bir şair yoxdur ki, o, əslən Azərbaycandan olmasın” [1, s.247]. Xilafət dövrünün tədqiqatçılarından olan R.Ə.Ağayev də “Ərəb xilafəti dövründə Azərbaycanın əhalisi” adlı monoqrafiyasında azərbaycanlı ziyalıların adı keçən bir çox ərəbdilli müəlliflərin adlarını qeyd edir [1, s.247]. Tarixçi N.A.Əliyeva da “Azərbaycanda İslam mədəniyyəti (VII-XIII)” adlı monoqrafiyasında azərbaycanlı ədiblərdən olan Musa Şəhavat, Əbul-Abbas əl-Əma, İsmayıl ibn Yəsar haqqında ətraflı məlumat verir [10, s.32, 291, 391]. Ömər Fərrux da əcəmlərdən olan İsmayıl ibn Yəsarın əslən Azərbaycandan olduğunu və Mədinədə doğulub, boya-başa çatdığını yazır [20, I, s.643]. Ömər Fərrux eyni adlı əsərində İsmayılın atası Yəsarın, qardaşı Musanın, oğlu Məhəmmədin və nəvəsi Ubeydullah ibn Məhəmmədin də şair olduğunu bildirir [20, I, s.643]. Əvvəlcə Əməvi xəlifəsi Vəlid ibn Əbdülməlikin, sonra isə Rüsafədə xəlifə Hişam ibn Əbdülməlikin hüzurunda olan İsmayıl ibn Yəsar xəlifəni mədh etmişdir [20, I, s.643].

İsmayıl ibn Yəsarın doğum tarixi haqqında mənbələrdə məlumat verilməsə də, Ömər Fərux, İbn Quteybə və əl-Mərzubani onun Mədinə şəhərində doğulduğunu qeyd etmişlər [20, I, s.643; 15, s.577; 18, s.406]. İsmayılın atası qadınlar üçün bəzək şeyləri satdığına görə ona İsmayıl ibn Yəsar ən-Nisai künyəsi verilmişdir [20, I, s.643; 7, IV, s.285]. Əl-Mərzubani İsmayılın qardaşlarından Süleyman və Məhəmmədin adını çəkir [18, s.406]. Əbul-Fərəc isə şairin birinci qardaşının adının İbrahim, ikincinin isə Məhəmməd olduğunu yazır [7, IV, s.288]. Ömər Fərrux isə Musa olduğunu qeyd edir [20, I, s.643]. İsmayılın oğluna gəldikdə isə “Əğani”də İbrahim, “Mucəm əş-şüəra” və “Tarixul-ədəb” də isə Məhəmməd olaraq qeyd olunur [7, IV, s.297; 18, s.406; 20, I, s.643].

İsmayıl ibn Yəsar Əməvilərin sonuncu xəlifəsi II Mərvani Himarın (744-749) hakimiyyətinin sonlarında vəfat etmişdir [7, IV, s.292]. Ömər Furrux isə İsmayıl ibn Yəsarın hicrətin 110-cu ilində (m.728) vəfat etdiyini yazır [20, I, s.643]. Bu da Əməvi xəlifəsi Hişam ibn Əbdülməlikin (724-743) xilafət dövrünə düşür.

Yaradıcılıq istiqaməti siyasi fəaliyyəti ilə bağlı olan İsmayıl ibn Yəsar, ərəb hegomonluğuna qarşı çıxaraq, qələmini əsarət altına alınmış xalqların mənlik heysiyyətinin qorunmasına sərf etmişdir.

Onun bizə gəlib çatan mərsiyyələrindən biri yaxın dostu Urvə ibn Zübeyrin oğlu Məhəmmədə həsr edilmişdir [7, IV, s.292].

Tarixdən məlumdur ki, xəlifə Yezidin (680-683) dövründən qiyam qaldıran Abdullah ibn Zübeyr Məkkədə hakimiyyəti ələ keçirmişdir. Əməvi xəlifəsi təyin edilən Əbdülməlik ibn Mərvan (685-705) Abdullah ibn Zübeyri məğlub etdikdən sonra onun tərəfdarlarını da cəzalandırmağa başlayır. Zübeyrilər tərəfində vuruşan İsmayıl ibn Yəsarı da cəza gözləyirdi. Xəlifənin ona qarşı olan qəzəbini aradan qaldırmaq istəyən İsmayıl ibn Yəsar bir mədhiyyə yazaraq xilafət sarayına daxil olur. Onun yazdığı mədhiyyəni dinlədikcə xəlifə yumşalır, sonda isə ona xələt verilməsini əmr edir [7, IV, s.293-294].

İsmayıl ibn Yəsarın ikinci mədhiyyəsi xəlifə II Vəlid ibn Yezidin (743-744) qardaşı Ğəmrə həsr edilmişdir. Mədhiyyə xəlifənin qardaşı üçün yazılsa da, şair ondan öz dostu kimi söhbət açır [7, IV, s.295].

Musa Şəhavata nisbətən daha mürəkkəb və zəngin bir yaradıcılıq yolu keçən İsmayıl ibn Yəsar, siyasi şeirləri ilə əsarət altına alınmış xalqların oyanmasında, öz azadlığı uğrunda mübarizəyə qalxmasında böyük rol oynamışdır.

**Əbul-Abbas əl-Əma**: Əbul-Fərac əl-İsfəhaniyə görə, Əbul-Abbas əl-Əma Bəni Leys qəbiləsinin, bir rəvayətə görə isə Cəzimə ibn Əli ibn əd-Deyl ibn Bəkr Əbd Mənat qəbiləsinin məvalisi olmuşdur. Əbul-Fərəc əl-İsfəhani Əli əl-Mədaini və Məhəmməd əl-Vaqidiyə istinad edərək ikinci rəvayətin düzgün olduğunu qeyd edir [8, XVI, s.204].

Saib ibn Fərrux Əbul-Abbas əl-Əmanın nə vaxt və harada anadan olma tarixi dəqiq məlum deyil. İbn Quteybə Əbul-Yəqzana əsaslanaraq Əbul-Abbası Mədinə şairləri sırasına daxil edir [15, s.577-578]. Əbul Fərəc isə Əbul-Abbasın ömrünün əsas hissəsinin Məkkədə keçməsini nəzərə alaraq onu Məkkə şairləri sırasına daxil etmişdir [8, XVI, s.207]. Ömər Fərrux Əbul-Abbasın Mədinədə anadan olduğunu göstərməklə yanaşı, onu Məkkə şairləri sırasına daxil etmişdir [17, s.65; 20, I, s.735].

İbn Quteybə, Zəbihullah Səfa, Əhməd Əmin, Ömər Fərrux və Azərbaycan alimi Məhəmmədəli Tərbiyət Əbul-Abbasın nəslinin Azərbaydan gəldiyini etiraf edir [17, s.65; 15, s.577-578; 20, I, s.735].

Abdullah ibn Zübeyr Hicazı tutduqdan sonra əməvilərin tərəfdarı olan Əbul-Abbası Məkkədən Taifə sürgün etmişdir [8, XVI, s.208; 20, I, s.735]. Əbul-Cəfər əl-İsfəhaninin məlumatına görə Əbul-Abbas xəlifə Mənsurun xilafəti dövründə vəfat etmişdir [8, XVI, s.205].

Bəni-Umeyyənin tərəfdarı olan Əbul-Abbas Ali-Zübeyrə nifrət etsə də, bu ailənin nümayəndəsi olan Musab ibn Zübeyrə nifrət etməmişdir. Bunun səbəbi isə Musabın ona yaxşı münasibət bəsləməsi olmuşdur. Hətta hicrətin 72-ci ilində (m.691) Musab öldükdə Əbul-Abbas onu yad etmişdir (20, I, s.735).

Qeyd etdiyimiz kimi İsmayıl ibn Yəsar və Musa Şəhavat Əməvi siyasətinə qarşı çıxaraq, din xadimlərini və qaziləri tənqid edirdilər. Elmi fəaliyyətinə görə Musa Şəhavat və İsmayıl ibn Yəsardan fərqlənən Əbul-Abbas əl-Əma isə, Əməvi xəlifələrinin düşmənlərinə qarşı mübarizə aparırdı.

Əməvilər tərəfindən böyük ehtiram görən Əbul-Abbas, Bəni-Umeyyənin tanınmış, təəssübkeş, bütün varlığı ilə əməvilərə bağlı olan şairlərindən biri olmuşdur. Məkkədə yaşayan şairə, əməvi xəlifələri pul və hədiyyələr göndərərək yardım edirdilər [8, XVI, s.207; 20, I, s.735].

Məkkədə həcc ziyarətində olan xəlifə Əbdülməlik ibn Mərvan camaatla oturmuşdu. Əbul-Abbas əl-Əmanın içəri daxil olduğunu görən xəlifə Əbdülməlik belə əmr etdi: “Burada olan hər bir Bəni-Umeyyə üzvündən, onların tərəfdarlarından və məvalilərindən, habelə burada oturan əyanlardan və tərəfdarlarından xahiş edirəm ki, Əbul-Abbasa xələt versinlər”. Ona verilən xələtlərin çoxluğundan şair görünməz oldu. Sonda xəlifə ona yüz min dirhəm pulda verdi” [8, XVI, s.207-208].

Abbasi xəlifəsi Mənsur Dəvaniqi Əbul-Abbasdan sonuncu əməvi xəlifəsi II Mərvani Himarın ona nə qədər bəxşiş verdiyini soruşduqda şair qürurla demişdir: “O qədər pul verdi ki, ondan sonra heç kimə ağız açmayım” [8, XVI, s.205].

Abbasi xəlifəsi Mənsur Dəvaniqini (754-775) də görən Əbul-Abbas, hicrətin 140-cı ilində (m.757) vəfat etmişdir [20, I, s.736].

İstər yaradıcılığı, istərsə də şəxsi həyatı ilə maraqlı şəxsiyyətlərdən biri olan Əbul-Abbas əl-Əma, İsmayıl ibn Yəsar və Musa Şəhavat ilə birlikdə ərəbdilli poeziyanı zənginləşdirdiyi kimi, ictimai və siyasi həyata da fəal müdaxilə edərək dövrünün nüfuzlu şairləri arasında öz yerini tutmuşdur.

**Yəhya bin Malik əl-Marağayi:** Azərbaycanın məşhur orta əsr alimlərindən biri də Yəhya bin Malik əl-Marağayidir. Əbu Əyyub Yəhya bin Malik əl-Marağayi hicri I əsrdə (miladi VII) yaşamış ən görkəmli və hələlik təsbit olunmuş ilk Azərbaycan hədisşünas alimidir. Orta əsrin məşhur alimlərindən olan Cəmaləddin əl-Mizzi “Təhzibul-kamal” adlı əsərində onun Səmurə bin Cündəb və Abdullah bin Abbas kimi məşhur səhabələrdən hədis rəvayət etdiyini qeyd etməklə yanaşı, Sabit əl-Bənnai, Qətadə bin Diamə kimi şəxslərin isə Yəhya ibn Malik

əl-Marağayidən hədis rəvayət etdiklərini yazır. Ən-Nəsai təxəllüsü ilə tanınan Əbu Əbdurahman Əhməd ibn Şueyb, onun hədis elmində etibarlı adam olduğunu bildirir. Yəhya ibn Malik əl-Marağayiyə bəzən, Həbib ibn Malik əl-Əzdi də deyirdilər.

Azərbaycanlı alim, Əməvi valilərindən olan Həccac ibn Yusif əs-Səqəfinin (694-714) valiliyi dövründə vəfat etmişdir. Əksər hədisşünas alimlər ondan hədis nəql etsələr də, ət-Tirmizi hədis nəql etməmişdir [5, XXXI, s.511; 25, s.60-70].

Əllamə Cəmaləddin əl-Hümeyri "ən-Nəsibə" əsərində Yəhya ibn Malik əl-Marağayinin Azərbaycana məxsus məntəqələrdən olan Marağadan olduğunu bildirir [4, I, s.586].

**Əbul-Həsən Əli ibn Sirri Səqr ibn Həmmad əl-Varsani:** Bir müddət Qəzvində təhsil alan Əbul-Həsən Əli Varsani, burada Əbu Hatim əs-Sicistani, Əbu Əli ət-Tusi kimi alimlərdən hədis dinləmişdi. Əbul-Həsən Əli Varsanidən isə İbn Bilal və İbn Bərkan kimi tanınmış mühəddislər hədis dinləmişlər [26, V, s.371]. Həyatı haqqında geniş məlumat olmayan alimin VIII-X əsrlərdə yaşadığı ehtimal olunur.

Ərəbdilli müəlliflərdən olan əl-Bəlazuri "Fütuhul-buldan" əsərində "əl-Varsani" nisbəli bir şəxsin xəlifə Əbu Cəfər Məsur Dəvaniqinin (754-775) qızı Ummi Cəfər Zübeydənin məvalisi olduğunu qeyd etmişdir. Əsərin naşiri Abdullah Ənis ət-Təbba "əl-Varsani" nisbəli bu şəxsin Əbul-Həsən Əli ibn Sirri olduğunu qeyd etmişdir [3, s.461; 19, s.358].

**Hüseyn ibn İbrahim Dərbəndi:** Erkən xilafət dövründə yaşamış (təxminə VII-IX əsrlərdə yaşadığı ehtimal olunur) azərbaycanlı alimlərdən biri də Hüseyn ibn İbrahim əl-Dərbəndidir. Onun təbəi-tabiundan (Həzrət Peyğəmbəri görməyib, onun səhabələrindən hər hansı biri ilə görüşən şəxs - Ş.Ş.) olması ehtimal olunur. Peyğəmbərin (s) səhabələrindən olan Ənəs ibn Maliklə görüşüb ondan hədis dinləyən Hafiz Əbu Ubeydə Hümeyd ət-Təvildən hədis dinləyən Hüseyn ibn İbrahim, Dərbənddə hədis elminin tədrisi ilə məşğul olmuşdur. İsa ibn Məhəmməd əl-Bağdadi ondan hədis dinləmişdir [22, I, s.164; 19, s.96].

Beləliklə, əldə etdiyimiz nəticə əsasında tam əminliklə deyə bilərik ki, VII-VIII əsrlərdə yaşayıb-yaratmış Musa Şəhavat, İsmayıl ibn Yəsar, Əbul-Abbas əl-Əma, Yəhya ibn Malik əl-Marağayi, Əbul-Həsən Əli ibn Sirri Səqr ibn Həmmad əl-Varsani və Hüseyn ibn İbrahim Dərbəndi kimi azərbaycanlı ədiblər ərəbdilli poeziyanın inkişafında yaxından iştirak etmişlər. Onların yaradıcılığı sübut edir ki, Azərbaycan xalqının həmin dövrdəki bədii təfəkkürü digər müsəlman xalqlarının mədəni səviyyəsindən heç də geri qalmamışdır.

Sonrakı dövrlərdə də əslən Azərbaycandan olan tarixçilər, coğrafiyaçılar, müfəssirlər, mühəddislər, mütəkəllimlər, filosoflar və ədiblər bir çox şəhərlərə səfər edərək həm öz elmlərini inkişaf etdirmişlər, həm də islami elmlərin tədrisində yaxından iştirak etmişlər.

## Ədəbiyyat


1. Ağayev R.Ə. Ərəb xilafəti dövründə Azərbaycanın əhalisi. "Turxan" NPB, Bakı: 2017, 344 s.
2. Azərbaycan ədəbiyyatı tarixi. Azərbaycan EA nəşriyyatı, Bakı-1961, 561 s.
3. Bəlazuri. Əhməd ibn Yəhya. Fütuhul-buldan. Dərul-kutubul-ilmiyyə, Beyrut: 1987, 777 s.
4. Cəmaləddin əl-Humeyri. Ən-Nəsibə. Beyrut: 1979, 650 s.
5. Cəmaləddin əl-Mizzi. Təhzibul-kamal. Beyrut: 1893, 527 s.
6. Əbul-Fərəc əl-İsfəhani. Kitab əl-Əğani. Dərus-sadr, Beyrut-2008, III, 254 s.
7. Əbul-Fərəc əl-İsfəhani. Kitab əl-Əğani. Dərus-sadr, Beyrut-2008, IV, 299 s.
8. Əbul-Fərəc əl-İsfəhani. Kitab əl-Əğani. Dərus-sadr, Beyrut-2008, XVI, 286 s.
9. Əbul-Fida. İmadəddin İsmail ibn Məhəmməd. Kitab əl-muxtəsər fi əxbar əl-bəşər. Mətbəatil-Hüseyniyyə, Misir: 1325, 219 s.
10. Əliyeva N.A. Azərbaycanda İslam mədəniyyəti (VII-XIII), Elm və təhsil, Bakı: 2017, 488 s.
11. Xətib Bağdadi. Əbu Bəkr Əhməd ibn Əli ibn Sabit. Tarixi Bağdad və mədinət əs-səlam. Dərul-ğarbil-ilmiyyə, Beyrut: 1988, 572 s.
12. İbn Cauzi. Əbdürrəhman ibn Əli. əl-Müntəzəm fi tarix əl-muluk vəl-uməm. Heydərabad: 1359, 453 s.

13. İbn Havqəl. Əbul-Qasim Nasibi. Kitab surət əl-ard, Mətbəəti Bəril, Leyden: 1928, 572 s.
14. İbn Quteybə. Əbi Məhəmməd Abdullah ibn Müslim. Uyunul-əxbar, Dərul-məarif, Qahirə: 1938, III, 468 s.
15. İbn Quteybə. Əbi Məhəmməd Abdullah ibn Müslim. Kitab əş-şer vəş-şüəra. I-II cildlər. Dərul-məarif, Qahirə: 1958, 1040 s.
16. İbn Xordadbeh. Əbul-Qasim Ubeydullah ibn Abdullah. Kitab əl-Məsalik vəl-məmalik. Mətbəəti-bəril, Leyden: 1889, 352 s.
17. Mahmudov M.R. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər (VII-XII əsrlər). Şərq-Qərb, Bakı: 2006, 192 s.
18. Mərzubani. Məhəmməd ibn İmran ibn Musa. Mucəm əş-şüəra. Dərus-sadr, Beyrut: 2005, 655 s.
19. Nəsirov E. Orta əsrlərdə yaşamış azərbaycanlı alimlər. Nurlar, Bakı: 2011. 416 s.
20. Ömər Fərrux. Tarix əl-ədəb əl-ərəbi. Dərul-elm, Beyrut: 1981, I, 774 s.
21. Səalibi Əbu Mənsur. Yətimətud-dəhr fiş-şüəra əhl əl-əsr. Dərul-kutub, Dəməşq: 1983, III, 465 s.
22. Səmani. Əbu Səd Əbdülkərim ibn Məhəmməd. Əl-Ənsab. Dərul-canan. Beyrut: 1988, I, 520 s.
23. Səmani. Əbu Səd Əbdülkərim ibn Məhəmməd. Əl-Ənsab. Dərul-canan, Beyrut: 1988, III, 578 s.
24. Səmani. Əbu Səd Əbdülkərim ibn Məhəmməd. Əl-Ənsab. Dərul-canan, Beyrut: 1988, V, 714 s.
25. Şərifov Ş.Ş. Erkən Xilafət dövründə yaşamış azərbaycanlı alimlər (VII-X əsrlər) / ADPU Tarix, İnsan və Cəmiyyət jurnalı, Bakı: 2019, № 2 (25), s. 60-70.
26. Təbəri. Məhəmməd ibn Cərir. Tarixi-Təbəri. Qahirə-1964, V, 654 s.
27. Təbəri. Məhəmməd ibn Cərir. Tarixi-Təbəri. Qahirə-1964, VI, 636 s.

## Резюме

**Шахлар Шарифов**

### Поэты Азербайджана, жившие в период раннего халифата (VII-VIII века)

Говоря о поэтах родом из Азербайджана, живших в период существования раннего Халифата, необходимо упомянуть имена Мусы Шахавата, Исмаила ибн Ясара Нисая и Абул Аббаса Амана.

Для изучения жизни и творчества азербайджанцев, писавших и творивших на арабском языке, необходимо обратиться к арабоязычным источникам. Так как средневековые арабские источники предоставляют обширную и богатую информацию об Азербайджане. Основными источниками нашей средневековой литературы являются арабоязычные коллекции, аннотации, исторические, географические и этнографические произведения. Данные произведения, появившиеся в первые годы существования государства Аббасидов, спасли от опасности уничтожения часть стихов азербайджанских поэтов, так же, как и жемчужины классической арабской литературы.

Произведения таких азербайджанских поэтов, как Исмаил ибн Ясар, Муса Шахават и Абул-Аббас аль-Ама, которые писали на арабском языке в 7-8 веках, резко отличались друг от друга, и занимали особое место среди азербайджанских поэтов того времени.

***Ключевые слова:*** *аль-Азербайджани, Муса Шахават, Исмаил ибн Ясар Нисаи, Абу-Аббас Ама, Яхья бин Малик аль-Марагайи, Абул-Хасан Али аль-Варсани, Хусейн ибн Ибрагим Дарбанди.*

**Summary**

**Shahlar Sharifov**

**Poets of Azerbaijan who lived in the early Caliphate period (VII-VIII centuries)**

Speaking of poets from Azerbaijan, who lived in the early Caliphate, it is worth mentioning the names of Musa Shahawat, Ismail ibn Yasar Nisai and Abul Abbas Aman.

It is necessary to turn to Arabic sources to study the life and creativity of the Azerbaijanis who wrote and created the Arabic language in the Middle Ages. Because medieval Arabic sources provide extensive and rich information about Azerbaijan. The main source of our medieval literature is Arabic-language collections, summaries, historical, geographical and ethnographic works. These works, which appeared in the early days of the Abbasid state, have saved the pearls of classical Arabic literature from the danger of destroying some of the poems of Azerbaijanis poets.

The works of Azerbaijanis poets such as Ismail ibn Yasar, Musa Shahawat and Abul-Abbas al-Ama, who wrote Arabic in the 7th and 8th centuries, have a special place among all Azerbaijanis poets at that time.

***Keywords:*** *al-Azerbaijani, Musa Shahavat, Ismail ibn Yasar Nisai, Abu-Abbas Ama, Yahya bin Malik al-Maraghayi, Abul-Hasan Ali al-Varsani, Hussein ibn Ibrahim Darbandi.*